

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 25 (21.686)

4 fevral 2017-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qәpik


## Görülən işlər müzakirə olunub, qarşıda duran vəzifələr müəyyənləşdirilib

*Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatında ötən ilin yekunlarına və qarşıda duran vəzifələrə həsr edilmiş yığıncaqda təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Qürbət Rzayev hesabat məruzəsi ilə çıxış edib.*

"Hesabat ilində Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatı şurasının 4, idarə heyətinin 12 yığıncağı keçirilib. Bu yığıncaqlarda partiya işi ilə bağlı müxtəlif məsələlər müzakirə olunub, buraxılan nöqsanlar və onların aradan qaldırılması yollarından danışılıb. 2016-cı il oktyabr ayının 15-də keçirilmiş 11-ci konfransa qədər təşkilatın 106 ərazi ilk təşkilatında keçirilmiş hesabat seçki yığıncaqlarında həmin təşkilatların 54 təşkilatda fəaliyyət göstərməsi qərara alınıb", – deyən Qürbət Rzayev bildirib ki, bu gün təşkilatın qeydiyyatında 5 min 835 nəfər üzv vardır. Onların 2756-sı qadın, 1464 nəfəri gəncdir. Ötən il 43-ü qadın, 63-ü gənc olmaqla, Yeni Azərbaycan Partiyası sıralarına 106 nəfər qəbul edilib. Bundan sonra da partiyanın boy artımı diqqətdə saxlanılacaq, təşəbbüskar, ictimai işlərdə daha çox fəallıq göstərən gənclər partiya üzvlüyünə qəbul olunacaqlar.

Vurğulanıb ki, 2016-cı ildə partiya üzvləri rayonun ictimai-siyasi həyatında, bölgədə keçirilən tikinti-quruculuq, abadlaşdırma, yaşıllaşdırma tədbirlərində fəallıq göstəriblər.

Qeyd olunub ki, 2017-ci ildə də qarşıda mühüm vəzifələr durur. Müstəqil dövlətimizin qurucusu və memarı olan ulu öndərimiz Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində qazanılan uğurları, əldə edilən yüksək nəticələri xalqa çatdırmalı, əhali arasında ictimai-siyasi işi gücləndirməliyik. Tutduğu vəzifəsindən asılı olmayaraq, hər bir partiya üzvü Proqram və Nizamnamənin tələblərinə, prinsiplərinə əməl etməli, siyasi proseslərdə fəallıq göstərməlidir.

Yığıncaqda Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatı Gənclər Birliyinin sədri Elvin Məmmədovun, Qadınlar Şurasının sədri Könül İsmayılovanın çıxışları olub.

## Sədərək rayonunda aparılan tikinti-quruculuq və abadlıq işləri geniş vüsət alıb

***Muxtar respublikanın sərhəd qapısı sayılan Sədərək rayonu 2016-cı ili uğurla başa vurub. Hər il rayon mərkəzi Heydərabad qəsəbəsində, Sədərək və Qaraağac kəndlərində tikinti-quruculuq işləri aparılır. Bütün bunlar rayon sakinlərinin yaxşı yaşamasına istiqamətlənən tədbirlərdir.***



Rayonda son illərdə müasir tələblərə cavab verən onlarla sayda ikimərtəbəli yaşayış evləri, rayonun idarə, müəssisə və təşkilatları üçün inzibati binalar tikilib. Bu tədbirlər ötən il də davam etdirilib. Məlumat üçün bildirək ki, 2016-cı ilin yanvar-noyabr aylarında iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 22 milyon 507 min manat və ya 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 4,1 faiz çox investisiya yönəldilib. Tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyanın həcmi 4,2 faiz artaraq 20 milyon 487 min manat olub. Bəhs olunan dövrdə Sədərək Rayon Mədəniyyət və Turizm Şöbəsinin inzibati binasının əsaslı təmiri, içməli su və kanalizasiya xəttinin çəkilişi, yollarda bərpa işləri davam etdirilib. 128 subartezian quyusu təmir olunub, 17 quyuya isə yeni nasos quraşdırılıb. Üç körpü təmir edilib. Beş müxtəlif gücdə olan transformator, 123 ədəd istismar müddəti başa çatmış sayğac yeniləri ilə əvəz olunub. 2500 metr müxtəlif ölçülü elektrik verilişi xətləri quraşdırılıb. İstismar müddəti başa çatmış transformatorlar, 2500 metr uzunluğunda müxtəlif ölçülü elektrik xətləri yeniləri ilə əvəz olunub. Yeni tikilən 16 mənzilə qaz xətti çəkilib.

Bütün bunlar sərhəd bölgəsi sakinləri tərəfindən onlara göstərilən böyük dövlət qayğısı kimi dəyərləndirilir, sədərəklilərin qurub-yaratmaq əzmini artırır.

## Yeni emal müəssisəsi fəaliyyətə başlayıb



***Muxtar respublikamızda sahibkarlığın inkişafının davamlı olaraq dəstəklənməsi, mövcud çətinliklərin aradan qaldırılması regionda yeni emal və istehsal sahələrinin artmasına öz müsbət təsirini göstərir. Cari ildə daha bir müəssisə – yük avtomobilləri şinlərinin təkrar emalı müəssisəsi yaradılıb.***

Naxçıvan şəhərinin Əliabad qəsəbəsində fiziki şəxs Heydər Quliyev tərəfindən yaradılan yük avtomobilləri şinlərinin təkrar emalı müəssisəsində Türkiyə və Almaniya istehsalı olan müasir texnoloji avadanlıqlar quraşdırılıb. Burada 5 nəfər daimi işlə təmin olunub.

Müəssisədə təkrar emal olunan şinlər ölkəmizin paytaxtı Bakı şəhərinə və digər regionlarına, eyni zamanda İran İslam Respublikasına satışa göndərilir. Aylıq istehsal gücü 2 min ədəd şin olan müəssisədə təkrar emal edilən bu məhsullara 1 il zəmanət verilir.

Məlumat üçün bildirək ki, yenidən istehsal olunan şinlərin qiyməti xarici ölkələrdə satılan şinlərin qiymətindən dəfələrlə ucuzdur. Belə ki, xarici ölkələrdə şinin qiyməti 800-900 manat arasında dəyişir. Lakin yeni müəssisədə şinlərin qiyməti cəmi 200-250 manat təşkil edir.

Müəssisə gələcəkdə öz fəaliyyətini genişləndirərək minik avtomobilləri şinlərinin təkrar emalını da həyata keçirməyi nəzərdə tutub.

## Avtomobil yollarına ciddi nəzarət edilir



***"Son günlər havaların soyuq keçməsinə, çoxlu qar yağmasına baxmayaraq, Naxçıvanın avtomobil yollarında sürücülər heç bir problemlə üzləşməyiblər. Mütəmadi olaraq yollarda aparılan təmizlik işləri nəticəsində hərəkətin intensivliyi təmin olunub".***

Naxçıvan Muxtar Respublikası Dövlət Yol Polisi İdarəsindən aldığımız məlumatda belə deyilir. Bildirilir ki, son vaxtlar muxtar respublikada avtomobillərin sayı xeyli artıb. Bu isə yollarda hərəkətin intensivliyinin təmin edilməsi üçün əlavə tədbirlərin görülməsi zərurəti yaradıb. Bu məqsədlə Naxçıvan şəhərinin müxtəlif prospekt, küçə və məhəllələrində 19 ədəd işıqfor və eyni zamanda ayrı-ayrı ünvanlarda 20 ədəd kamera quraşdırılıb. Bu da yol hərəkəti qaydalarını pozan sürücülərə mütəmadi olaraq nəzarət etmək imkanı yaradır.

Avtomobillərin texniki baxışı da diqqət mərkəzində saxlanılıb. Ötən il muxtar respublikada daimi qeydiyyatda olan hüquqi və fiziki şəxslərə məxsus 18 min 755 nəqliyyat vasitəsi texniki baxışdan keçirilib.

Məlumatda yol hərəkəti qaydalarına ciddi riayət edilməsi üçün də müvafiq tədbirlərin davam etdirildiyi bildirilir. Belə ki, 2016-cı ildə Dövlət Yol Polisi əməkdaşları tərəfindən 23 min 820 yol hərəkəti qaydaları xətası, o cümlədən yolda müəyyən edilmiş sürət həddinin aşılmasına görə 1136, yol nişanlarının tələblərinə riayət etməyən 5840, sürücülük hüququ olmadan nəqliyyat vasitəsini idarə edən 185, nəqliyyat vasitəsini vəkalətsiz idarə edən 961, nəqliyyat vasitəsini texniki baxışdan keçirmədən idarə edən 605, nəqliyyat vasitəsinin hərəkəti zamanı sükan arxasında telefonla danışan 162, təhlükəsizlik kəmərindən istifadə etməyən 2126, avtonəqliyyat vasitələrini sərxoş vəziyyətdə idarə edən 256 nəfər aşkar edilərək barələrində inzibati qaydada tədbirlər görülüb.

Avtomobillərin qeydiyyata alınması, qeydiyyat nişanı, qeydiyyat şəhadətnaməsi və sürücülük vəsiqələrinin verilməsi işi də diqqət mərkəzindədir. Ötən il Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin Qeydiyyat-imtahan və texniki baxış şöbəsi tərəfindən 13 min 444 ədəd qeydiyyat nişanı, 16 min 693 ədəd qeydiyyat şəhadətnaməsi, 4891 ədəd sürücülük vəsiqəsi verilib. Onu da qeyd edək ki, səyyari xidmət tərəfindən Dövlət Yol Polisi İdarəsinin səlahiyyətlərinə aid olan sürücülük vəsiqələrinin dəyişdirilməsi ilə əlaqədar 1388 müraciətə baxılaraq həll edilib. 274 ədəd nəqliyyat vasitəsi ilkin, 6205 ədəd nəqliyyat vasitəsi isə təkrarən qeydiyyata alınıb. 315 nəqliyyat vasitəsi qeydiyyatdan çıxarılıb, 113 avtomaşın çıxdaş olunub.

## 2016-cı ildə AMEA Naxçıvan Bölməsi əməkdaşlarının xaricdə 148 elmi əsəri işıq üzü görüb



***Naxçıvan Muxtar Respublikasında elmin inkişafına göstərilən dövlət qayğısı, elm və təhsil müəssisələri üçün yaradılmış şərait müxtəlif elm sahələrinin inkişaf etdirilməsinə hərtərəfli imkan yaradıb. Bu sahənin diqqət mərkəzində saxlanılması elm adamlarının məsuliyyətini artırmaqla yanaşı, elmi-tədqiqat müəssisələrində müxtəlif istiqamətlər üzrə aparılan tədqiqatların elmi və praktik nəticələriyini də şərtləndirir. Yola saldığımız 2016-cı il bu baxımdan AMEA Naxçıvan Bölməsinin əməkdaşları üçün uğurlu olub.***

Bölmədən aldığımız məlumata görə, ötən ilin elmi-tədqiqat işləri 23 monoqrafiya, 15 kitab, 4 metodik vəsait, 560 elmi məqalə və konfrans materialı, 15 tezis olmaqla, 617 elmi əsərdə öz əksini tapıb (2015-ci ildə 571 əsər olub). Əsərlərdən 3 monoqrafiya, 1 kitab, 137 elmi məqalə və konfrans materialı, 7 tezis olmaqla, 148-i xaricdə çap edilib. Bölmə üzrə çap olunan məqalə və tezislərdən 14-ü arxeologiya, 4-ü etnoqrafiya, 6-sı epiqrafika, 17-si yeni və ən yeni dövr tarixi, 13-ü dilçilik, 3-ü folklorşünaslıq, 4-ü ədəbiyyatşünaslıq, 10-u sənətşünaslıq, 39-u kimya, 6-sı fizika, 5-i iqtisadiyyat, 17-si botanika, 2-si meyvəçilik, 2-si biokimya, 2-si torpaqşünaslıq, 1-i bitkiçilik, 2-si zoologiya, 1-i mətnşünaslıq, 3-ü astrofizika sahəsi üzrə nəşr olunub. İmpaktfaktorlu məqalələrin 14-ü kimya, 2-si fizika, 2-si iqtisadiyyat, 6-sı botanika, 1-i biokimya, 2-si torpaqşünaslıq, 2-si astrofizika sahəsi üzrə olub.

Məlumatda qeyd olunur ki, ötən il 21 nəfərin 29 elmi məqaləsi impaktfaktorlu jurnallarda nəşr edilib. Bu rəqəm 2015-ci ildə 23 olub. Bununla yanaşı, bölmə əməkdaşları 1 beynəlxalq, 4 respublika səviyyəli qrant layihələrində iştirak edərək qalib gəliblər. Bölmənin 48 əməkdaşı respublikada və xaricdə 25 beynəlxalq simpozium və konfransda məruzələrlə çıxış edib.

**Xəbərlər şöbəsi**

***Muxtar respublikada mövcud potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafı, istehsal müəssisələrinin fəaliyyətinin daha da genişləndirilməsi, ixracyönümlü məhsul istehsalının stimullaşdırılması və sahibkarlığın inkişafı yolu ilə əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır. Bu sahədə görülən işlər iqtisadiyyatın dinamik inkişafını təmin etmiş, əhalinin məşğulluq səviyyəsi artmışdır. Artıq Naxçıvan Muxtar Respublikası hər il sosial-iqtisadi həyatda əldə olunan mühüm nailiyyətlərlə başa vurur.***

# Dinamik iqtisadi inkişafın bəhrələri

İnkişafın ən mühüm göstəricilərindən biri, yəni istər maddi istehsal, istərsə də qeyri-maddi xidmətlər sahələrində iqtisadi fəaliyyətin son nəticəsini xarakterizə edən amillərdən biri ümumi daxili məhsulun artım həcmidir. Həyata keçirilən məqsədyönlü siyasətin nəticəsidir ki, muxtar respublikada sənaye müəssisələri, quşçuluq, heyvandarlıq, balıqçılıq, taxılçılıq, üzümçülük təsərrüfatları, kənd təsərrüfatı məhsullarının istehsalı, tədarükü, saxlanması, emalı və satışı kompleksləri yaradılmış, ərzaq məhsulları üzrə yerli istehsalın həcmi artmışdır. Bütün bu müsbət proseslər ümumi daxili məhsulun artımına səbəb olmuşdur. Belə ki, 2016-cı ildə ümumi daxili məhsul istehsalının həcmi 2 milyard 500 milyon manatdan çox olmuşdur. Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi isə 2015-ci ilin müvafiq dövrünə nisbətən 3,4 faiz artaraq 5 min 771 manat təşkil etmişdir.

Muxtar respublikada həyata keçirilən iqtisadi inkişaf modelinin strateji istiqamətlərindən biri mövcud təbii-iqtisadi, texniki-istehsal və elmi-texniki potensialın fəal surətdə təsərrüfat dövriyyəsinə cəlb olunmasıdır. Bu da, öz növbəsində, regionların sosial-iqtisadi inkişafı, əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı, meyvəçiliyin və tərəvəzçiliyin inkişafı və bir sıra konkret sahələr üzrə mühüm dövlət proqramlarının qəbul edilməsi hesabına mümkün olmuşdur. Qeyd olunan dövrdə "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" və bir sıra digər proqramların icrası uğurla davam etdirilmişdir. 2016-cı ildə muxtar respublikada iqtisadiyyatın bütün sahələrində dövlət texniki, maliyyə və innovasiya dəstəyi ilə 29 layihə üzrə istehsal və xidmət sahələri istifadəyə verilmişdir. Yerli istehsal sahələrinin inkişafının nəticəsidir ki, bu gün muxtar respublikada 366 növdə məhsul istehsal olunur. Bu məhsulların 120 növü ərzaq, 246 növü qeyri-ərzaq məhsullarıdır. 107-si ərzaq, 237-si qeyri-ərzaq olmaqla, 344 növdə məhsula olan tələbatın yerli imkanlar hesabına ödənilməsi təmin edilmişdir.

Muxtar respublikada insanların kənd təsərrüfatı ilə məşğul olmaları üçün hərtərəfli şərait yaradılmışdır. Yaşayış məntəqələrində müasir infrastrukturun qurulması, yolların abadlaşdırılması, təbii qazın, elektrik enerjisinin davamlı verilməsi, bütün kəndlərin telefonlaşdırılması, kənddə şəhər rahatlığının yaradılması, güzəştli kreditlərin verilməsi və texnika təminatı insanların torpağa bağlılığını daha da artırmış, kənd təsərrüfatının inkişafını təmin etmişdir. Bütün bunların nəticəsidir ki, 2016-cı ildə kənd təsərrüfatının inkişafı üzrə göstəricilər artmış, 429 milyon 448 min manatlıq məhsul istehsal edilmişdir.

Kənd təsərrüfatı məhsullarının ixrac potensialından səmərəli istifadə baxımından məhsulun istehsalı qədər onun müvafiq saxlama şəraiti ilə təmin olunması da mühüm şərtdir. Əhalinin payız-qış mövsümündə istehlak tələbatının keyfiyyətlə və dolğun ödənilməsində, kənd təsərrüfatı məhsullarının bazara çıxış müddətinin artırılmasında soyuducu anbarlar xüsusi əhəmiyyət daşıyır. Məhz bu məqsədlə muxtar respublikada ötən il 6 yeni soyuducu anbar yaradılmış, ümumilikdə, anbarların sayı 31-ə, ümumi tutumu isə 14 min 30 tona çatdırılmışdır. Payız-qış mövsümü ilə əlaqədar istifadəyə verilmiş istixana kompleksləri tərəfindən isə 127 min 162 kvadratmetr sahədə tərəvəz məhsulları yetişdirilmiş və 1332 ton tərəvəz məhsulu bazara çıxarılmışdır.

Sahibkarlığın inkişafı, əlverişli biznes mühitinin yaradılması məqsədilə əsaslı şəkildə islahatların aparılması, iqtisadiyyatın davamlı və tarazlı inkişafının təmin edilməsi ölkəmizin sosial-iqtisadi inkişafının hazırkı mərhələsinin prioritet vəzifələrindəndir. Muxtar respublikada həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsində sahibkarlığın inkişafı sahəsində mühüm nailiyyətlər əldə edilmişdir.

Muxtar respublikada fəaliyyət göstərən sahibkarlıq subyektlərinin fəaliyyətinin stimullaşdırılması, sahibkarların problemlərinin həlli, onlara dövlət maliyyə dəstəyinin göstərilməsi məqsədilə hər il olduğu kimi, ötən il fevral ayının 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sahibkarlarla görüşü keçirilmişdir. Muxtar respublikada 2016-cı ildə 7 layihənin maliyyələşdirilməsinə 10 milyon 803 min manat, kənd təsərrüfatı məhsulları istehsalı, o cümlədən heyvandarlıq, balıqçılıq, quşçuluq, soyuducu anbar və istixana komplekslərinin inkişafı yönümlü 16 layihənin maliyyələşdirilməsinə 989 min 700 manat, xidmət sektorunun inkişafı yönümlü 2 layihənin maliyyələşdirilməsinə 3 milyon 276 min manat xərclənmişdir. Bununla da, muxtar respublika üzrə 2000-ci ildən ötən müddət ərzində Sahibkarlığa Kömək Fondu tərəfindən 1219 layihənin maliyyələşdirilməsinə 134 milyon 204 min manatdan çox vəsait ayrılmışdır.

Sahibkarların hüquqlarının müdafiəsi və onların fəaliyyətinə kənar müdaxilələrin qarşısının alınması istiqamətində tədbirlər davam etdirilmiş, 2016-cı ildə 11 sahibkarlıq subyekti "Nəzarət kitabçası" ilə təmin olunmuşdur. Sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi tədbirləri çərçivəsində hesabat dövrü ərzində muxtar respublikada xüsusi fəaliyyət növləri üzrə 2016-cı ildə 19 ədəd lisenziya verilmiş, ümumilikdə, 242 ədəd lisenziya blankının verilməsi təmin edilmişdir.

Ümumi iqtisadi inkişafda xüsusi çəkiyə malik məqamlardan biri də ixrac potensialının gücləndirilməsidir. Xarici iqtisadi əlaqələrin genişləndirilməsinə böyük diqqət və qayğının göstərilməsi, ixracın stimullaşdırılması sahəsində qəbul edilən qərarlar, sahibkarlığa sistemli dövlət dəstəyi muxtar respublikada istehsal olunan məhsulların ixrac imkanlarının artmasına, iqtisadi əlaqələrimizin daha da genişlənməsinə, məhsullarımızın dünya bazarlarında daha geniş çeşiddə təmsil olunmasına zəmin yaratmışdır. 2016-cı ildə muxtar respublikanın xarici ticarət dövriyyəsi 457 milyon 421 min ABŞ dolları təşkil etmişdir. Ticarət əməliyyatlarının 92 faizi ixracın, 8 faizi idxalın payına düşmüşdür. 2015-ci illə müqayisədə ixracın həcmi artmış, idxalın həcmi isə 61 faizədək azalmışdır. Ölkə daxilində və xaricdə keçirilən 16 biznes-forum, 2 beynəlxalq sərgidə 147 sahibkarlıq subyektinin iştirakı təmin edilmişdir.

Daxili bazarın qorunması, antiinflyasiya tədbirlərinin gücləndirilməsi, yerli istehsalın və satışın stimullaşdırılması, məhsul istehsalçılarına hərtərəfli şəraitin yaradılması istiqamətində həyata keçirilən tədbirlər davamlı xarakter almışdır. Bu məqsədlə ötən il muxtar respublikada fəaliyyət göstərən 260 obyektdə monitorinq aparılmış, 2450 halda idxal və yerli istehsal mallarından nümunələr götürülərək laboratoriyada təhlil edilmiş, ümumi dəyəri 19 min 935 manat olan istehlak müddəti ötmüş mallar aşkar edilərək ticarət dövriyyəsindən çıxarılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 30 aprel tarixli Fərmanı ilə təsdiq edilmiş "Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması qaydası" yerli istehsal müəssisələrimizin fəaliyyətini stimullaşdırmışdır. Bu gün 49 qapalı və 102 təhsil müəssisəsi 270 çeşiddə ərzaq məhsulları ilə davamlı təchiz olunur. Bundan başqa, muxtar respublikada fəaliyyət göstərən və istehsalını tamamilə dayandırmış və ya tam gücü ilə işləməyən müəssisələrdə monitorinqlər aparılmış, 8 istehsal və xidmət sahəsinin fəaliyyəti bərpa olunmuşdur.

Xalqımıza məxsus adət-ənənələrin, xalq yaradıcılığı nümunələrinin, eləcə də minilliklər boyu formalaşmış milli dəyərlərin bərpası, qorunması və gələcək nəsillərə ötürülməsinə muxtar respublikamızda xüsusi önəm verilir, bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir. 2016-cı ildə "Naxçıvan Biznes Mərkəzi" MMC-nin nəzdində yaradılmış "Xalq Yaradıcılığı Emalatxanası"nda xalçaların toxunması zamanı Naxçıvan xalçaçılıq məktəbinə aid rəng, naxış və ilmələrin bərpasına ciddi şəkildə diqqət yetirilmiş, xalçaların elektron görüntü və eskizləri hazırlanmışdır. Çıxarılan eskizlərlə, ümumilikdə, 56 müxtəlif ölçülü xalçanın toxunması başa çatdırılmış və 27 xalçanın satışı həyata keçirilmişdir. Həmçinin ümumi dəyəri 9527 manat olan 204 adda əl işi və sənət əsərləri qəbul edilmiş, sənətkarlar tərəfindən 6794 manat dəyərində 97 əl işi satılmışdır.

Muxtar respublikada istehsal olunan məhsulların reklam və təşviqi işlərinin aparılması məqsədilə milli dəyərləri əks etdirən 484 əl işi və sənət əsərinin, həmçinin 37 ixrac potensiallı müəssisəyə aid ərzaq və qeyri-ərzaq olmaqla, 339 çeşiddə məhsulun kataloqu hazırlanmışdır. Ötən il görülən mühüm işlərdən biri də "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində "Yaradıcı əllər", "Göycə", "Naxçıvan çörəkləri", "Plov və yallı" və "Arıçılıq məhsulları bal" festivallarının keçirilməsi olmuşdur.

*Bu gün Naxçıvanda sakinlər sosial-iqtisadi inkişafın və davamlı yüksəlişin real nəticələrini öz gündəlik həyatlarında hiss etməkdədirlər. Bütün bunlar isə ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinin uğurla davam etdirilməsinin nəticələridir.*

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***



















# Rayonların sosial-iqtisadi həyatı

***2016-cı il Naxçıvanın tarixində əlamətdar və əhəmiyyətli hadisələrlə yadda qaldı. İstər ictimai-siyasi, istərsə də sosial-iqtisadi və mədəni sferalarda uğurlu nəticələr əldə olundu. "Nizam-intizamın daha da möhkəmləndirilməsi ili" olan 2016-cı ildə əldə olunan uğurlardan muxtar respublikanın hər rayonuna pay düşüb. Bu nəticələrlə tanış olsaq, dövlət müstəqilliyimizin 25-ci ildönümünü qeyd etdiyimiz 2016-cı ilin Kəngərli rayonunun tarixinə də uğurlu il kimi yazıldığını deyə bilərik.***



## Kəngərlinin yeni növrağı

### *Bu rayonun bütün yaşayış məntəqələri abadlaşdırılıb*

Yaradılmasından ötən 13 il ərzində Kəngərli rayonunun böyük inkişaf yolu keçdiyini bura yolu düşən hər kəs təsdiq edir. Əvvəlki illərdə olduğu kimi, 2016-cı ildə də rayonun bir çox yaşayış məntəqələrində quruculuq işləri aparılıb, yeni infrastruktur layihələri həyata keçirilib. Ötən il Yurdçu kəndində kompleks quruculuq işlərinin aparılmasından sonra Kəngərli rayonu muxtar respublikada bütün yaşayış məntəqələri abadlaşdırılan bölgəyə çevrilib. Bununla yanaşı, quruculuq tədbirlərinin davamı kimi ötən il Qıvraq qəsəbə tam orta məktəbində təmir işləri aparılıb, Şahtaxtı kəndində 594 şagird yerlik məktəb binası əsaslı təmir olunub, rayon mərkəzində və ətraf kəndlərdə içməli su və kanalizasiya şəbəkəsinin tikintisi, Qıvraq qəsəbə uşaq bağçasının inşası və abadlıq işləri davam etdirilib. Əhalinin mənzil şəraitinin yaxşılaşdırılması tədbirləri çərçivəsində Böyükdüz kəndində müharibə veteranı üçün fərdi mənzil tikilərək istifadəyə verilib. Bundan əlavə, ötən il fərdi evlər tikmək üçün rayon sakinləri tərəfindən 23 müraciət qeydə alınıb. Əhalinin şəxsi vəsaiti hesabına, ümumilikdə, 14 min 664 kvadratmetr yaşayış sahəsi istifadəyə verilib ki, bu da 2015-ci ildəki müvafiq göstəricidən 1,4 faiz çoxdur.

Muxtar respublikamızın digər rayonları kimi, Kəngərli rayonu da aqrar sahə üzrə ixtisaslaşıb. Hələ keçmiş dövrlərdən rayon ərazisində müxtəlif kənd təsərrüfatı məhsulları yetişdirilib, meyvəçilik, tütünçülük, üzümçülük və taxılçılıq əsas diqqət mərkəzində saxlanılan sahələrdən olub. Rayon əhalisinin böyük əksəriyyətinin kəndlərdə yaşaması kənd təsərrüfatının inkişafına öz təsirini göstərir. Aydındır ki, kənd təsərrüfatının inkişafı bilavasitə torpaqla bağlıdır. Ona görə də son illərdə bu sahədə mütərəqqi və intensiv metodların tətbiqinə üstünlük verilib, əl əməyinin yüngülləşdirilməsi, əkinçilikdə və heyvandarlıqda məhsuldar sortlardan istifadə olunması istiqamətində tədbirlər həyata keçirilib. Rayon İcra Hakimiyyətindən aldığımız məlumata görə, ötən il "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 8 ədəd müxtəlif kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq lizinq yolu ilə rayonun torpaq mülkiyyətçilərinə verilib. Eyni zamanda kənd təsərrüfatı məhsulları istehsalçılarına 500 tondan artıq güzəştli şərtlərlə gübrə verilib, istifadə etdikləri yanacaq və motor yağlarına görə 333 min 200 manat, buğda istehsalçılarının maddi marağının artırılması və buğda istehsalının stimullaşdırılması məqsədilə isə 125 min 400 manat vəsait ödənilib. Əkinçiliklə məşğul olan mülkiyyətçilərə subsidiyaların və güzəştli şərtlərlə kreditlərin verilməsi hesabına 2016-cı ilin məhsulu üçün 8 min 256 hektar sahədə əkin aparılıb ki, bu da ötən illə müqayisədə 104 hektar çoxdur. 2016-cı ildə də bitkiçilik məhsulları içərisində taxılçılıq öz üstün mövqeyini qoruyub saxlayıb. 3 min 965 hektar sahədə taxıl əkini həyata keçirilib. 2016-cı ilin payızında 2017-ci ilin məhsulu üçün 3 min 521 hektar sahədə taxıl əkilib.

Qeyd edək ki, əkin sahələrindən səmərəli istifadə olunmasında rayonda həyata keçirilən meliorasiya və irriqasiya tədbirləri mühüm rol oynayıb. Belə ki, ötən ilin oktyabr ayında Kəngərli rayonunun Böyükdüz və Xok kəndlərini əhatə edən yeni qapalı suvarma şəbəkəsi istifadəyə verilib. 117 hektar torpaq sahəsini əhatə edən suvarma şəbəkəsinin Araz çayından qidalanması və öz axını ilə paylanması təmin edilib. Ərazidə 2,2 kilometr uzunluğunda ana xətt, 9 min 930 metr uzunluğunda isə paylayıcı su xətləri çəkilib. Ümumilikdə isə rayonun digər yaşayış məntəqələrində 7 min 315 metr məsafədə yeni suvarma və içməli su xətlərinin çəkilişi təmin olunub.

Meyvəçiliyin və tərəvəzçiliyin inkişaf etdirilməsi də Kəngərli rayonunda diqqət mərkəzində saxlanılan məsələlərdəndir. Ötən il rayonda 6 min 797 ton meyvə, 3 min 959 ton tərəvəz istehsal olunub ki, bu da bir il öncəki göstəriciləri müvafiq olaraq 1,6 və 1,1 faiz üstələyir. Qeyd etmək lazımdır ki, əhalinin yerli meyvə-tərəvəz məhsullarına olan tələbatının ödənilməsinə soyuducu anbarların yaradılması və istixana komplekslərinin istifadəyə verilməsi öz müsbət təsirini göstərib. Rayonda tutumu 400 tondan çox olan 2 soyuducu anbar, ümumi sahəsi 45 min kvadratmetrdən artıq 2 istixana kompleksi fəaliyyət göstərib.

İqtisadi inkişafın təmin olunmasında investisiya fəallığının gücləndirilməsi, sahibkarlığın stimullaşdırılması və təşəbbüskarlığa geniş meydan verilməsi mühüm əhəmiyyət daşıyır. Biznes və investisiya mühitinin yaxşılaşdırılması nəticəsində ötən il sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün müraciət etmiş 3 hüquqi və 165 fiziki şəxsin dövlət qeydiyyatına alınması təmin edilib.

Rəsmi statistikaya görə, 2016-cı ildə rayonda diri çəkidə 2 min 794 ton ət, 8 min 674 ton süd istehsal olunub ki, bu göstəricilər 2015-ci illə müqayisədə müvafiq olaraq 1,4 və 1,3 faiz çoxdur. Ümumilikdə isə ötən il rayonda 40 milyon 585 min manatlıq kənd təsərrüfatı məhsulları istehsal edilib ki, bu da 2015-ci illə müqayisədə 6,4 faiz çoxdur.

Müasir dövrdə mühüm məsələlərdən biri də əhalinin məşğulluğunun təmin olunmasıdır. "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın uğurlu icrasının nəticəsidir ki, ötən il rayonda 178 yeni iş yeri yaradılıb. Bu iş yerlərinin 174-ü və ya 97,8 faizi daimi iş yeridir. 2016-cı il ərzində 282 nəfər işaxtaran vətəndaşdan 264 nəfəri işlə təmin olunub. Naxçıvan şəhərində təhsil və səhiyyə işçiləri üçün keçirilən yarmarkalarda göndəriş alan 47 nəfər Kəngərli rayonunun təhsil və səhiyyə müəssisələrində işə başlayıb.

2016-cı ildə əhəmiyyəti ilə seçilən tədbirlərdən biri də "Qarabağlar Türbə Kompleksinin bərpası və tədqiq olunması haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 4 iyul 2016-cı il tarixli Sərəncamına əsasən Naxçıvan memarlığının nadir incilərindən sayılan, dünya əhəmiyyətli Qarabağlar Türbə Kompleksində bərpa işlərinin elmi və tarixi əsaslarla aparılmasına başlanmasıdır. Bu tarixi abidənin tədqiqi və bərpası yaxın gələcəkdə rayonun turizm potensialına öz töhfəsini verəcəkdir.

Naxçıvan Muxtar Respublikasının ən gənc rayonu olan Kəngərlidə digər sahələrin fəaliyyəti haqqında da müsbət fikirlər söyləmək mümkündür. Xüsusilə 2016-cı ildə rayonda müxtəlif sahələr üzrə fəaliyyət göstərən kollektivlərdə nizam-intizamın gözlənilməsi, yaşayış məntəqələrində və digər ətraf ərazilərdə təmizliyin qorunub saxlanılması diqqət mərkəzində saxlanılan məsələlərdəndir. Hazırda rayonun qəsəbə və kəndlərində təmizliyin qorunması üçün bütün yaşayış məntəqələrinə tullantı qutuları qoyulub. Təmizlik işlərinin görülməsi üçün kommunal müəssisələr kombinatının balansında olan 1 ekskavator, 1 qoşqulu traktor, 3 tullantıdaşıyan maşın rayon ərazisinin təmizliyinə xidmət göstərir. Bu faktları ona görə sadaladıq ki, artıq rayon ərazisində abad olmayan yaşayış məntəqəsi yoxdur. İnsaf naminə deməliyik ki, yaradılanların qorunub saxlanılmasına, abadlığın, təmizliyin gözlənilməsinə bu soyuq qış fəslində rayona növbəti səfərimizdə bir daha şahidlik etdik. İnanırıq ki, 32 minə yaxın sakini olan rayonda bu nümunəvi şəraiti bundan sonra da müşahidə edəcəyik. Çünki müasir rayonun tarixi adına yaraşan da budur.

✍ **Səbuhi HƏSƏNOV**






## *"Şərur-3"* Məhdud Məsuliyyətli Cəmiyyəti gümüş filtrdə süzülən məhsullar istehsal edir

***Muxtar respublikamızda ilbəil emal və istehsal sahələrinin sayı, müxtəlif çeşiddə məhsul istehsalının həcmi artır. Belə müəssisələrdən biri də "Şərur-3" Məhdud Məsuliyyətli Cəmiyyətidir. Müəssisədə spirtli içkilər istehsal olunur. Və elə burada vacib bir məqama toxunaq ki, spirtli içkilərin tərkibi standartlara cavab verməyəndə insan həyatı üçün böyük təhlükə mənbəyinə çevrilir.***

Bu günlərdə müəssisədə olduq. "Şərur-3" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Zakir Məmmədov deyir ki, cəmiyyətin yaradılması üçün 2012-ci ildə maliyyə dəstəyi göstərilib və müəssisə 2013-cü ilin iyun ayından fəaliyyətə başlayıb. Cəmiyyət istehsalın ilkin mərhələsindən alıcı bazası qazanıb və elə buna görə Sahibkarlığa Kömək Fondundan ayrılan 180 min manatı qaytarıb.

Dörd il bundan əvvəl 4950 kvadratmetr ərazidə müəssisə üçün ikimərtəbəli inzibati bina, emal, qablaşdırma bölmələri, hazır və köməkçi məhsulların saxlanılması anbarları, tara anbarı, meyvə cövhərlərini saxlamaq üçün zirzəmi, spirt saxlamaq üçün yerüstü anbar inşa olunub. Həmçinin spirt saxlamaq üçün 3 ədəd 16 tonluq çən quraşdırılıb. Müəssisə özündə klassik texnologiyanı və ən yeni texniki nailiyyətləri birləşdirir. Məhsulun rəqabətədavamlı olması məqsədilə quraşdırılan avadanlığın hamısı İtaliyanın, Rusiyanın, Türkiyənin bu sahədə ixtisaslaşmış şirkətlərinin istehsalıdır. Texnoloji avadanlığın daşınması, quraşdırılması və sınaqları mütəxəssislərin iştirakı ilə aparılıb. Zavodun ərazisində istehsal proseslərinə və hazır məhsullara texniki-kimyəvi və mikrobioloji nəzarət üçün laboratoriya, hava və soyuducu kompressor sahəsi, yeməkxana yaradılıb. Müəssisədə quraşdırılan avadanlıqların gücü saatda 3 min butulkadır. İstehsal iki xətdə aparılır. Birində araq, digərində meyvə likörləri istehsalı həyata keçirilir. Cari ildə isə limonad istehsalına başlanılması nəzərdə tutulub.

Müəssisənin rəhbəri bildirir ki, spirt rektifikatı Belarusdan, şüşə butulkalar Bakı şəhərindən, Ukrayna, Rusiya, Moldovadan gətirilir. Məhsulun qablaşdırılması üçün karton taralar yerli istehsaldır.

Müəssisədə yaradılan sərgidə nümayiş etdirilən müxtəlif çeşidli məhsullarla tanış oluruq. Öyrənirik ki, hazırda burada 7 çeşiddə meyvə araqları, 8 çeşiddə digər spirtli içki və meyvə likörləri istehsal olunur. Naxçıvanda günəşli günlərin çox olması, bölgənin iqlimi burada yetişən meyvə, giləmeyvə və bitkilərə xüsusi dad və ətir verir. Odur ki, Naxçıvan məhsulları olan heyva, şaftalı, qara tut, gilas, zirinc, kəklikotu, baldırğan araqları, albalı, heyva, şaftalı və qara tutdan hazırlanan nastoylar alıcıları razı salır.

Məhsul gümüş filtrdən keçirilərək standartlara uyğun süzülür. İstehsal olunan 100, 250, 500, 700, 750 millilitrlik şüşə butulkalarda qablaşdırılan içkilər lazımi laboratoriya analizlərindən keçirildikdən və keyfiyyətinə müvafiq qaydada zəmanət verildikdən sonra muxtar respublikada satışa buraxılır və Bakı şəhərinə göndərilir. Bu il isə məhsulun Türkiyə Respublikasına ixrac olunması nəzərdə tutulub.

Bəli, məhz keyfiyyət amilinə göstərilən diqqətin, alınan nəticənin bəhrəsidir ki, ötən il 17 min 373, 4 dekalitr – 965 min 271 manatlıq məhsul satılıb. Eləcə də müəssisənin məhsulları Bakı şəhərində, Almaniyada qida sərgisinə çıxarılıb. 2013-cü ildə isə müəssisə Gəncə şəhərində keçirilən "II Gəncə Beynəlxalq Şərab Festivalı"nda 36 ölkədən 160-dan çox xarici qonağın, müxtəlif şərabçılıq şirkətlərində çalışan istehsalçıların iştirak etdikləri festivala qatılaraq diploma layiq görülüb.

Hansı müəssisədən söhbət açırıqsa, orada bir amil diqqət çəkir. Muxtar respublika sakinlərinin məşğulluğunda oynadığı rol. Bəli, yerli istehsalın inkişafı daxili bazarın qorunmasında, xaricə valyuta axınının qarşısının alınmasında və idxaldan asılılığın aradan qaldırılmasında mühüm əhəmiyyətə malikdir. "Şərur-3" Məhdud Məsuliyyətli Cəmiyyətində bu gün 25 nəfərin çalışması bu sayda ailənin dolanışığı deməkdir.

✍ **Hafizə ƏLİYEVA**

*Ad insan üçün böyük əhəmiyyət kəsb edən məsələlərdəndir. Çünki bir insanın adı ömrünün sonuna kimi onunla yoldaş olan, onun xarakter və şəxsiyyətinin formalaşmasına təsir edən ən mühüm atributlardan sayılır. Ancaq ad qoymaq elə bir seçimdir ki, bu seçim adı daşıyanın öz əlində olmur. Adı daşıyan şəxs böyüdükcə bu adla fəxr də edə, utana da bilər.*

# Uşaqlarımızı adları ilə böyüdək

## Ötən il muxtar respublikada uşaqlara hansı adlar qoyulub?

Cəmiyyətimizdə yaxşı, mənalı adlarla yanaşı, mənasız adları olan, adları ilə müsbət və ya mənfi təsəvvür yaradan, öyünən və ya xəcalət hissi keçirən insanlar var. İnsanın gün ərzində on dəfələrlə adı ilə çağırıldığını nəzərə alsaq, bunun əhəmiyyətini anlamaq çətin olmaz. Bundan əlavə, dövrün, ictimai-siyasi və mədəni mühitin təsiri də adqoymada bu və ya digər dərəcədə özünü göstərir. Məsələn, Sovet dövründə uşaqlara verilmiş İnqilab, Traktor, Kombayn, Kolxoz, Oktyabr, Bolşevik, Komsomol, Prikaz kimi adlar bunun təsdiqidir. Təsadüfi deyil ki, bu gün ABŞ və Avropanın aparıcı tədqiqat mərkəzləri uşağa ad seçiminin əhəmiyyətinin valideynlərin təsəvvür etdiyindən dəfələrlə böyük olduğunu söyləyirlər. Uşaqlara mənasız adların qoyulması, təbii ki, müəyyən yaşdan sonra elə uşaqların özünə böyük təsir göstərir, ona neqativ enerji "bəxş edir". Bu baxımdan uşaqlara ad qoyulmasında valideynlərin dünyagörüşü, milli və mənəvi dəyərlərə bağlılığı mühüm rol oynayır. Bəs dinimizdə uşaqlara ad qoyulması ilə bağlı hansı tövsiyələr var?

İslam dininə görə, gözəl ad uşaqda dəyər və şəxsiyyət hissi oyadır. Buna görə də Peyğəmbərimiz uşaqların pis adlarını dəyişdirərmiş. Dini dəyərlərimizə görə, yeni doğulan uşağa gözəl ad qoymaq valideynlərin üzərinə düşən vəzifələrdəndir. Uşağa qoyulan ad həm bu dünyada, həm də axirətdə keçərlidir. Məhəmməd Peyğəmbər uşaqlarla yanaşı, böyüklərin də adlarıyla maraqlanmış, xoşuna gəlməyən bəzi isimləri dəyişdirmişdir. Bununla yanaşı, uşaqlara qoyulacaq gözəl adlarla əlaqəli də məsləhətlər vermişdir. Çünki hədisi-şərifdə "Siz qiyamət günündə adlarınızla və atalarınızın adları ilə çağırılacaqsınız. Buna görə də gözəl adlar qoyun!" buyurulmuşdur. İmam Musa Kazım buyurur: "Atanın ilk yaxşılığı övladına gözəl ad qoymaqdır". Psixoloqlara görə, əgər sizin övladınızın adı namünasib olsa, bu, gələcəkdə onun psixoloji rahatlığını təhlükəyə ata, onu ruhi problemlərlə qarşılaşdıra bilər. Adın məna və məzmununa diqqət etmək lazımdır. Ola bilər, ad sözün quruluş və tələffüzü baxımından gözəl olsun, amma bir mənası olmasın. Övladımız böyüyəndən sonra bizdən mütləq öz adının mənasını soruşacaq. Adının mənasını başqaları da ondan soruşacaqlar. Əgər onun adı mənasız olsa, o, valideynlərindən gileylənəcək.

Müstəqilliyimizin bərpasından sonrakı dövrdə ölkəmizdə uşaqlara verilən adlar içərisində milli mədəniyyətimizə yad olan və daha çox Qərbdən əxz olunan adlar üstünlük təşkil edirdi. Unutmaq olmaz ki, övladlarımıza Qərb adlarının qoyulması özünü kiçik saymağın nişanəsidir. Doğrudur, özünü ultramüasir hesab edənlər bu adları çox sevirlər, ancaq unutmayaq ki, cəmiyyətimizdə milli dəyərlərimizə bağlı insanların sayı çoxdur və belə insanların o cür adlardan xoşu gəlmir. Və bu kimi adlar həmin uşaqların digərləri ilə davranışına təsir göstərə bilər. Buna görə də uşaqlara ad qoyulmasında milliliyə üstünlük verilməsi əsas amillərdən biridir. Hamıya məlumdur ki, bizim nağıllarımızda, dastanlarımızda, mifologiyamızda çox gözəl adlar olub. Bundan əlavə, milli qəhrəmanlarımızın adlarını qoymaq uşaqlarımızın vətənpərvərlik ruhunda böyüməsinə mühüm təsir edə bilər. Bütün bunları sadalamaqda məqsədimiz ondan ibarətdir ki, adın insan xarakterinə təsirini göstərə bilək. Bu səbəbdən də uşağa ad qoyarkən həmin adın milli-mənəvi dəyərlərə uyğunluğuna, həmçinin mənəviyyat böyüklərinin, nümunəvi insanların adlarına üstünlük verilməlidir. Bundan əlavə, əvvəllər yaşamış və indi nəcib işlərlə anılan insanların adı uşağa qoyularaq həmin şəxsin insan olaraq gördüyü gözəl işləri də uşağa nümunə kimi göstərmək olar. Bu metodla uşağa göstərilən nümunə ona psixoloji olaraq daha xoş təsir bağışlayacaq. Xülasə, adlar seçilərkən bütün bunlara diqqət yetirilməlidir. Bəs bu gün muxtar respublikamızda bu sahədə vəziyyət necədir?

Mövzu ilə bağlı Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinə müraciət etdik. Nazirlikdən bildirdilər ki, təxminən, 10 il bundan əvvəl muxtar respublikada uşaqlara ad qoyulmasında bir çox problemlərlə qarşılaşmaq olardı. Əcnəbi seriallardan təsirlənərək götürülən Avropa mənşəli, eləcə də Azərbaycan dilində olmasına baxmayaraq, heç bir məna kəsb etməyən, eyni zamanda tələffüzü sonradan həmin uşaq üçün ikrah hissi oyadacaq adların qoyulmasına maraq göstərən valideynlərə tez-tez rast gəlirdik. Ancaq son illərdə cəmiyyətimizdə vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, dövlətimiz tərəfindən milli və mənəvi dəyərlərə bağlılığı artıran mühüm tədbirlərin həyata keçirilməsi bu sahədə müsbət nəticələrin əldə olunmasına imkan verib. Doğrudur, müasir dövrdə də bəzi hallarda münasib olmayan adlarla bağlı valideyn müraciətlərinə rast gəlinir, ancaq onlarla aparılan maarifləndirici söhbətlər sonda uşaqlarımızın gözəl adlarla adlandırılmasına gətirib çıxarır. Nazirlikdən verilən məlumata görə, 2016-cı ildə muxtar respublikada doğulan oğlan uşaqlarına Məhəmməd, Hüseyn, Əli, Murad, Uğur, Ayxan, Ümid, İbrahim, Nihad, Kənan, Həsən, Rəsul, Fərid, Babək, qız uşaqlarına isə daha çox Zəhra, Nuray, Zeynəb, Xədicə, Leyla, Səma, Fidan, Gülay, Günay, Aynur, Aysel, Ayşən, Sevil kimi adlar verilib.

*Bizdə belə bir adət var: uşağa ad qoyulanda onunla bağlı arzular dilə gətirilir və "Adı ilə böyüsün" deyilir. Odur ki, uşağa ad seçərkən onun gələcəyini mütləq nəzərə almaq lazımdır. Əgər hər birimiz ailəmizdə vətənpərvər, milli və mənəvi dəyərlərimizə bağlı uşaqlar böyütmək istəyiriksə, ilk növbədə, onlara gözəl adlar verək ki, adları ilə böyüsünlər.*

✍ **Səbuhi HƏSƏNOV**

# Qaz cihazlarından istifadə zamanı təhlükəsizlik qaydalarına riayət edilməlidir

*Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi qaz cihazları və qaz təsərrüfatı ilə bağlı təhlükəsizlik qaydalarının tələbləri barədə bildirir ki, hər bir vətəndaşın istifadə etdiyi qaz cihazı sənaye üsulu ilə istehsal edilməli və Azərbaycan dilində istifadə təlimatı olmalıdır. Cihazlarda təhlükəsizlik sistemi, qaz təzyiqi nizamlayıcısı, müəyyən səbəblərdən qaz kəsildikdə və təkrar verildikdə sistemi bağlayan qurğunun olması vacibdir.*

Qaz cihazlarının xətlərində özbaşına dəyişiklik etmək, təhlükəsizlik qurğusunu çıxarmaq, rezin şlanqla qaz xəttinin çəkilişinə yol vermək olmaz. Qaz cihazlarının quraşdırılması, yerinin dəyişdirilməsi və qaz xətlərinin çəkilişi yalnız bu sahə üzrə mütəxəssislər tərəfindən həyata keçirilməlidir. Mənzilə daxil olduqda qaz iyi hiss edilərsə, işığı yandırıb-söndürmək, elektrik cihazlarını işə salmaq, siqaret çəkmək və açıq alovdan istifadə etmək qəti qadağandır. Otağın qapı və pəncərələri açılmalı və hava axını yaradılmalıdır. Yaşayış evlərində qazın sızmasını yoxlamaq üçün açıq alovdan istifadə etmək olmaz, bundan ötrü yalnız sabun məhlulundan istifadə etmək lazımdır. Əgər qaz sızması aşkar olunarsa, o zaman qazın verilişi dayandırılmalı və dərhal qaz istismar idarəsinin (104) qəza xidmətinə xəbər verilməlidir.

Yaşayış evləri və mənzillərdə qaz cihazlarını işlək vəziyyətdə qoyub yatmaq, sobaların həddindən artıq qızmasına yol vermək, onların istifadəsini azyaşlı uşaqlara etibar edib evdən çıxmaq olmaz. Mənzil tərk edilərkən qaz cihazları söndürülməli, qaz borularının ventilləri bağlanmalıdır. Mətbəxdə qaz plitəsi və suqızdırıcı quraşdırılarkən otağın həcmi nəzərə alınmalıdır. Belə ki, qaz cihazları quraşdırılan mətbəx otağının hündürlüyü 2,2 metrdən az olmamalı, pəncərə açıq nəfəslik və havadəyişmə kanalı ilə təmin edilməlidir. Yaşayış evlərində qaz cihazlarından yanma məhsullarının xaric olunmasına diqqət yetirilməli, qaz cihazlarının tüstü boruları digər məişət cihazlarının borularına qoşulmamalıdır.

Qaz cihazlarının istismarı zamanı əhalinin üzləşdiyi xoşagəlməz hadisələrdən biri də dəm qazı ilə zəhərlənmədir. Dəm qazı ilə zəhərlənmə daha çox hava təchizatı pis olan otaq və qarajlarda, habelə standarta uyğun olmayan və kustar üsulla hazırlanan qaz sobaları və suqızdırıcılarının istismarından, həmçinin işlək vəziyyətdə olmayan tüstü bacaları və borularından baş verir. Qaz sobaları və suqızdırıcılarından tüstünün xaric olunması üçün standarta uyğun olmayan və tez qatlanan borulardan istifadə etmək olmaz. Bunun üçün yalnız düz axımlı metal borulardan istifadə olunmalı, soba ilə divar arasında 20-30 santimetr məsafə olmaqla tüstü boruları 1,5 metr şaquli istiqamətdə qalxdıqdan sonra binaların dam örtüyündən 70 santimetr hündürlükdə quraşdırılmalıdır. Vanna otağında qazla işləyən suqızdırıcı cihaz quraşdırılmamalı, hava daxil olması üçün qapının aşağısında dəliklər olmalı, nəfəslik açıq saxlanmalı, ventilyasiya kanalı daim işlək vəziyyətdə olmalıdır. Dəm qazının yaranmaması üçün otaqlar tez-tez havalandırılmalı, tüstü boruları küləyin istiqaməti nəzərə alınmaqla quraşdırılmalı və tüstü borularının çıxışı tutulmamalıdır. Tüstü boruları və bacaları hər 2 aydan bir təmizlənməli, onların sazlığı daima yoxlanılmalıdır.

*Qaz cihazları ilə bağlı hər hansı təhlükə ilə üzləşdikdə dərhal Fövqəladə Hallar Nazirliyinin* ***"112"*** *qaynar telefon xəttinə və ya Dövlət Yanğın Təhlükəsizliyi şöbələrinin* ***"101"*** *xidmətinə məlumat verilməlidir. Unutmayın ki, təhlükəsizliyiniz öz əlinizdədir.*

**Mirtaleh SEYİDOV**
***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşı***

# Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Agentliyi üzrə 2017-ci ilin yanvar ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Ordubad rayonu | 1383 | 99,3 | 99,6 | 100,3 |
| 2. | Şahbuz rayonu | 578 | 40,9 | 41,0 | 100,2 |
| 3. | Kəngərli rayonu | 927 | 66,2 | 66,3 | 100,2 |
| 4. | Culfa rayonu | 1368 | 98,4 | 98,5 | 100,1 |
| 5. | Babək rayonu | 2160 | 155,5 | 155,6 | 100,1 |
| 6. | Naxçıvan şəhəri | 5947 | 446,0 | 446,0 | 100,0 |
| 7. | Şərur rayonu | 2153 | 155,0 | 155,0 | 100,0 |
| 8. | Sədərək rayonu | 252 | 18,0 | 18,0 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 15111 | 1360,0 | 1223,9 | 90,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **29879** | **2439,3** | **2303,9** | **94,4** |

**Qeyd:** Yanvar ayında texniki itki nəzərə alınmaqla daxil olan 29 milyon 879 min kilovat-saat elektrik enerjisinin dəyəri 2 milyon 439 min 300 manat olmuş, cəmi 2 milyon 303 min 900 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 94,4 faizini təşkil edir.

*Ordubad rayonunun Aza kənd tam orta məktəbində 2 fevral – Gənclər Günü münasibətilə şahmat üzrə daxili birincilik keçirilib.*

# Zəka sahibləri və voleybolçular birincilik uğrunda mübarizə aparıblar

Yarışdan öncə çıxış edən məktəbin direktoru Təvəkkül Məmmədov bildirib ki, ölkəmizdə, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında gənclər hərtərəfli qayğı ilə əhatə ediliblər. Bu qayğını idman sahəsində də görmək olar. Belə ki, yeniyetmə və gənclərin idmanın müxtəlif növləri ilə məşğul olmaları üçün hərtərəfli şərait yaradılıb. Yeni tikilən məktəb binalarında idman zalları şagirdlərin ixtiyarına verilib. Şahmat dərslərinin orta məktəblərdə tədris olunması uşaqların daha savadlı, bacarıqlı yetişməsinə zəmin yaradır.

Olimpiya sistemi üzrə keçirilən birincilikdə qalib adını VII sinif şagirdi İlkin Əliyev qazanıb. Digər iki pillədə isə VI sinif şagirdi Elvin Məmmədəliyev və V sinif şagirdi Leyla Babazadə qərarlaşıblar.

Məktəbdə həmçinin IX-XI sinif şagirdləri arasında voleybol üzrə də daxili birincilik keçirilib. Birincilikdə daha üstün oyun sərgiləyən məktəbin XI sinif şagirdləri qalib adını qazanıblar.

Sonda hər iki birincilikdə qalib olan idmançılar diplomla təltif olunublar.

✍ **Ceyhun MƏMMƏDOV**

## İtmişdir

Naxçıvan şəhərinin Qaraçuq kənd sakini Babayeva Səkinə Bəhlul qızının adına olan 91[B] nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, "Qoçüstü" məhəlləsi, bina 3, mənzil 88-də yaşayan Əhmədov Rüfət Quşdan oğlunun adına olan 12416 inventar nömrəli texniki pasport və 093250 reyestr nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 98